## THE USE OF F. CHOPIN'S DANCE MUSIC IN MUSICAL UPBRINGING OF STUDENTS

***Shabanova Sevil Aqali***

***Summary***

In this article the importance of piano miniatures in F.Chopin's work is emphasized. Significant place is given to dance genres, which were clearly indicated in piano miniatures of composers: mazurka, polonese, waltz. Chopin demonstrates endless posibilities of damcing genre as a way to show inner world of human beeing. Mazurka is the only genre in the works of Chopin which he constantly chose. It became comppser's mirror of the soul.

***Rəyçi: Məhərrəmova Gültəkin***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT:781.**

## OQTAY ZÜLFÜQAROVUN UŞAQ MUSİQİ TƏRBİYƏSİNDƏ ROLU

***Məmmədova Rəşidə Hamlet qızı***
***Gəncə Dövlət Universiteti***
***rashida.mamedova.68@mail.ru***

**Xülasə:** *Oqtay Zülfüqarov Azərbaycanın ən böyük uşaq bəstəkarlarından biri kimi tanınmışdır. Bəstəkar ömrünün 60 ilindən çoxunu uşaq mahnılarının yazılmasına, musiqi tərbiyəsinin inkişafına həsr etmişdir. Uşaqlara daim böyük sevgi və həssaslıqla yanaşan Oqtay Zülfüqarov onlar üçün şən, gözəl mahnı nümunələri yaratmış və neçə-neçə nəsil bu mahnılarla böyümüşdür. Bu baxımdan onun çoxşaxəli irsi və fəaliyyəti Azərbaycan bəstəkarlıq musiqisi tarixində müstəsna bir yerə malikdir.*

*Oqtay Zülfüqarov mahnıdan tutmuş uşaq operasına kimi, habelə kiçik kollektivlərdən başlamış uşaq teatrının yaradılmasına qədər davamlı, səmərəli və çoxşaxəli fəaliyyət göstərmiş, ömrünün sonuna kimi məhz bu sahəni özünün əsas, birinci dərəcəli işi hesab etmişdir.*

*Oqtay Zülfüqarov uzun müddət Azərbaycan televiziyasında çalışmış, kino və teatr sənətinə öz layiqli töhvəsini vermişdir.*

**Açar sözlər:** Musiqi, mahnı, bəstəkar, məktəbli, tərbiyə
**Ключевые слова:** Музыка, песня, композитор, школьник, воспитание
**Key words:** Music, song, composer, student, education

Öz təsirliyinə və geniş yayılmasına görə mahnı janrı və bu janrda yaradılan müxtəlif xarakterli sənət əsərləri uşaqların hərtərəfli inkişafında mühüm tərbiyəvi əhəmiyyətə malikdir.

O.Zülfüqarov uşaqlar üçün ilk mahnılarını hələ musiqi texnikumunda oxuduğu illərdə yazır. Bəstəkarın melodik istedadı, şeirlə işləmək, musiqi fikrini lakonik ifadə etmək qabiliyyəti, bitkin forma duyumu mahnı janrında uğurla çalışmaq üçün yaxşı zəmin yaradırdı. Eyni zamanda bəstəkar yaxşı anlayırdı ki, mahnı janrında işləmək üçün xalq mahnı yaradıcılıgının qayda-qanunlarına dərindən yiyələnmək, eləcə də XX əsrin 20-30-cu illərində də bəstəkar yaradıcılığında meydana gəlmiş kütləvi mahnı janrının dil-üslub keyfiyyətlərini yaxşı mənimsəmək lazımdır. Bu tərz yaradıcılıq məsələlərini həll etmək üçün o, Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində oxuyarkən akademik musiqi janrlarında işləməklə yanaşı, mahnı janrında, ələlxüsus da uşaq musiqisi istiqamətində axtarışlar aparır və bir sıra maraqlı nəticələr əldə edir. Artıq bu illərdə şair həmkarı Teymur Elçinin sözlərinə bəstələnmiş “Sayıram onacan”, “Lay-lay”, “Can nənə”, Abdulla Şaiqin sözlərinə “Xoruz”, “Oynayaq top-top” mahnıları uşaq musiqi mühitində geniş yayılır.

Məktəbəqədər və məktəb yaşlı uşaqlar üçün daim düşünən, mahnı vasitəsilə onların gözəllik və ülvilik hisslərini, danışıq dilini – nitqini və musiqi təfəkkürünü vəhdətdə inkişaf etdirmək vəzifəsini ən müqəddəs bir iş kimi qarşıya məqsəd qoyan Oqtay Zülfüqarovun mahnı üzrə ilk qələm təcrübəsində 1948- ci ildən başlayaraq 500- dən çox mahnı yazıb yaratmışdır. Hər bir mahnı müəyyən tərbiyə məqsədi daşımış, uşağın həyata olan emosional marağını, ritm hissiyyatını, danışıq dilini inkişaf etdirmək məqsədilə yazılmışdır.

Professor Şəhla Həsənovanın yazdığı kimi: "O. Zülfüqarovun fikrini cəmləşdirmək, düşünüb-daşınmaq üçün tənha bir yerə, iş otağına çəkilməsini təsəvvür etmək çətindir. Çünki onu həmişə cəmiyyətdə, xalq içərisində, öz məsləkdaşları, sənət dostları, şagirdləri və onu sevən dinləyiciləri arasında görməyə alışmışıq. Əslində, bu, həyatını da, yaradıcılığını da dinləyicisiz, xüsusən tələbkar, şıltaq, hər adamla açıqlaşmayan, ipə-sapa yatmayan uşaq auditoriyası ilə ünsiyyətsiz xəyalına belə gətirməyən bəstəkarı səciyyələndirən ən maraqlı cəhətlərdəndir" [ 4.109 ].

1961- ci ildən başlayaraq Oqtay Zülfüqarovun müxtəlif nəşriyatlar tərəfindən 23 mahnı məcmuəsi nəşr olunmuşdur. Bəstəkarın "Mənim ilk nəğmələrim" adlı məcmuəsi və burada verilən əsərlər 1962- ci ildə gənc bəstəkarların yaradıcılığına həsr olunmuş keçmiş SSRİ Ümumittifaq festifalında yüksək qiymətləndirilmiş və festifalın laureatı adına layiq görülmüşdür. Bu məcmuəyə "Telefon", "Do, re, mi, fa, sol, lya, si", "Uşaq mahnıları" daxil idi. Bu silsilələr uşaq psixologiyasına, onların maraq dairəsinə dərin bələdlilik nümayiş etdirir.

Tanınmış tədqiqatçı - alim, prof. İ.Əfəndiyeva bu barədə belə yazır: "O. Zülfüqarovun mahnı yaradıcılığında uşaq həyatının psixologiyası iki aspektdə təcəssüm olunub: bir tərəfdən bəstəkar incə bədii zövqlə uşaqların ətraf obraz mühitini təsvir edir, digər tərəfdən uşağın daxili aləmini üzə çıxarır. O. Zülfüqarovun mahnı silsilələrinin başlıca fərqləndirici cəhəti – süjet xəttinin olmasıdır" [ 6.47-48].

Bəstəkarın "İlk nəğmələrim" adlı 20 mahnıdan ibarət birinci silsiləsində elə ilk məşhur "Xoruz" mahnısının şeiri T.Elçinə məxsusdur. Uzun illər məhz bu mahnı eyniadlı uşaq radio verilişinin parlaq musiqi girişi idi. Belə fikir də var ki, Xalq artisti Hüseynağa Sadıqovun aparıcısı olduğu və uşaqların çox sevdiyi bu verilişin yaranması fikri də məhz bu mahnıdan qaynaqlanıb. Mahnıda bəstəkar lakonik, qabarıq ştrixlərlə sübh tezdən banlayan xoruzun obrazını yaratmışdır [ 3. 28-29 ].

1964-cü ildə ərsəyə gəlmiş "Telefon" məcmuəsi şair Mirmehdi Seyidzadənin sözlərinə eyniadlı məşhur mahnı ilə başlayır. Mahnı tez bir zamanda geniş yayılır, müxtəlif dillərə tərcümə olunur. "Telefon" məcmuəsində verilən digər mahnılar "Gəl bahar", "Cü-cü", "Qış nəğməsi", "Gəl barışaq", "Tütəyim" (sözləri T. Elçinindir), "Dilarə", "Saat" (sözləri T.Mütəllibovundur), "Qonaqlar" (sözləri X.Əlibəylinindir) mahnısı da mövzusuna, məzmununa, melodiya forma əlvanlığına görə diqqəti cəlb edir. Həmin mahnıların yaradılmasından 50 ilə yaxın bir vaxt keçməsinə baxmayaraq indi də uşaqların dilindən düşmür.

1966- cı ildə bəstəkarın məktəb yaşlı uşaqlar üçün çap olunan "Do, re, mi, fa, sol, lya, si" mahnılar məcmuəsi Azərnəşr tərəfindən nəşr olunmuşdur. Məcmuəyə "Gənc futbolçular", "Pambığım", "Əziz məktəbim", "Sünbülüm", "Qərənfil", "Tofiq haqqında ballada" və s. mahnılar daxildir.

Bəstəkarın bir-birinin ardınca çıxan digər məcmuələrini də göstərmək olar: "Uşaq mahnıları" (1972),"Uşaq pyesləri və ansamblları" (1974), "Tumurcuq uşaq mahnıları məcmuəsi" (1974), "Tumurcuq-82" (1982), "Fortepiano variasiyaları" (1987), "Səslən, nəğməm" mahnı məcmuəsi (1988), "Mahnı çələngi" məcmuəsi (1996), "Piano üçün 24 pyes" (2009).

Qeyd etmək lazımdır ki, O.Zülfüqarov uşaqlar üçün yalnız mahnı və pyes məcmuələri yazmaqla kifayətlənməyib. 1963-cü ildə "Pişik və Sərçə" adlı birpərdəli uşaq opera-nağılını

(libretto – T.Elçin) ərsəyə gətirir. Əsər 1964-cü ildə Azərbaycan Dövlət Opera və Balet teatrının solistləri və orkestrinin ifasında (dirijor – Pamiz Mustafayev) respublika radiosunda səsləndirilir. 1965-ci ildə yenə də Teymur Elçinin librettosu əsasında uşaqlar üçün “Ulduz-qız” opera-baletini yazır ki, burada nağıl formasında uşaqların kosmosa uçmaq arzusundan bəhs edilir (əsər tamaşaya qoyulmayıb). 1972-cü ildə “Şəngülüm, Şüngülüm, Məngülüm” xalq nağılı əsasında (libretto – Ramiz Heydər) eyniadlı uşaq operettası bəstələnir və bəstəkar nağıla yeni obrazlar – Dovşan, Tülkü, Çaqqal, Qarğa, Şiri daxil etməklə süjeti uşaqlar üçün daha cazibədar edir. Əsər rus dilinə “Озорные козлята” adı ilə tərcümə olunmuş və 1974-cü ildə tamaşaya qoyulmuşdur.

1972-ci ildə isə “Tumurcuq” teatrı yaranır. Bu teatr 2 yaşından başlayaraq böyük bir uşaq auditoriyasını əhatə etməyə qadir olan unikal bir teatra çevrilir. “Tumurcuğ”un fəaliyyəti, iş metodları haqqında keçmiş SSRİ-n ən mötəbər mətbuat orqanlarında – “Правда”, “Комсомольская правда”, “Советская культура” qəzetlərində məqalələr, O.Zülfüqarovla müsahibələr dərc olunurdu. Bunun nəticəsidir ki, 1986-cı ildə SSRİ Bəstəkarlar İttifaqının VI qurultayında onun sədri Tixon Xrennikov öz hesabat məruzəsində uşaqların musiqi-estetik tərbiyəsi sahəsində vəziyyətdən danışarkən uşaq teatrı yaratmış O.Zülfüqarovun fəaliyyətini xüsusi önə çəkmişdir [5]. O, nümunə kimi bu teatrın təcrübəsindən Estoniya və Ukraynada istifadə edildiyini qeyd etmiş və onun böyük əhəmiyyətini vurğulamışdır [2. 38].

“Tumurcuq” teatrının ənənələrini O.Zülfüqarovun 1983-cü ildə yaratdığı “Aysel” uşaq teatrı davam etdirmişdi. Bu teatr üçün də bəstəkar çoxlu sayda mahnılar bəstələmiş, 3 məcmuə (2004, 2007, 2019) dərc etdirmişdi. 1993-cü ildən ömrünün son dövrünə qədər Oqtay Zülfüqarov Dövlət Uşaq filarmoniyasının bədii rəhbəri kimi çalışmışdır. Görkəmli sənətkarın gənc nəslin yetişdirilməsində xidmətləri danılmazdır.

***Ədəbiyyat***


1.Bağırova T. Uşaq musiqi yaradıcılığı. Azərbaycan dövlət nəşr, Bakı, 2012, 170 s.

2.Əliyeva L. Maestro Oqtay Zülfüqarov. Bakı, Şərq-Qərb, 2014, 124 s.

3.Xəlilov V. Bəstəkar Oqtay Zülfüqarov. Bakı, Şur, 1997, 98 s.

4.Mahmudova (Həsənova) Ş. Bahar nəğmələri, 1999, 180 s.

5.Хренников Т. “Советская культура” qəzeti, 3 aprel, 1986.

6.Эфендиева И.М. Новое в азербайджанской песне (1958-1972), Баку,1974, 54 с.

**Saytoqrafiya:**

www.musiqi-dünya.az


## РОЛЬ ОКТАЯ ЗУЛЬФИГАРОВА В МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ ДЕТЕЙə

***Мамедова Рашида Гамлет кызы***

***Резюме***


Октай Зульфигаров один из знаменитых детских композиторов Азербайджана. Композитор больше 60-ти лет своей жизни посвятил написанию сочинений детских песен и развитию Азербайджанской культуры.

Октай Зульфигаров, проявляя детям огромную любовь и чуткое отношение написал образцы веселых песен, на которых воспитывалось несколько поколений детей. С данного аспекта его разнообразному творческому наследии деятельности принадлежит исключительно важное место в истории композиторского музыкального искусства. Начиная с детских песен, включая детские оперы, Октай Зульфигаров писал с большим воодушевлением и начал свою деятельность с малых коллективов. Он принимал непосредственное участие в создании детского театра, вкладывал все усилия в это полезное продолжительное дело, считая его для себя первостепенным.

Долгое время Октай Зульфигаров трудился на Азербайджанском телевидении. Он внес огромный вклад в искусство театра и кино.

**ROLE OF OCTAY ZULFIGAROV IN THE MUSICAL EDUCATION OF CHILDREN**

***Mammadova Rashida Hamlet***

***Summary***

Oktay Zulfugarov is known as one of the greatest children's composers of Azerbaijan. The composer has dedicated more than 60 years of his life to the writing of children's songs and the development of Azerbaijani culture.

Oktay Zulfugarov, who always treated children with great love and sensitivity, created cheerful and beautiful songs for them and grew up with these songs for many generations. In this sense, his multifaceted heritage has an axceptional place in the history of compositional music activity Azerbaijan.

Oktay Zulfugarov worked continuously, effectively and multifaceted, from singing to childrens opera, as well as from small groups to the creation of childrens theater, and until the end of his life he considered this field his main, first – class work.

***Rəyçi:Məmmədova Qəsirə***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT -37.01**

**NATURADAN RƏSM DƏRSLƏRİNİN TƏŞKİLİNƏ VERİLƏN ƏSAS TƏLƏBLƏR**

***Allahverdiyeva Raziyyə Qiyas qızı***
***Gəncə Dövlət Universiteti***
***tunzalehuseyinova70@gmail.com***

**Xülasə:** *Məktəbdə naturadan rəsm təliminin şagirdlərin əqli bacarıqlarının inkişafına gətirib çıxardığını əsas götürərək məşğələlərdə uşaqlara əşyaların formalarını perspektiva, kölgələr nəzəriyyəsi, rəngləmə, anatomiya kimi elmi məlumatlar əsasında da düzgün təhlil etməyə alışdırmaq vacib məsələdir.*

*Naturadan rəsm uşaqlarda aydın ifadəli təsəvvür yaratmaqla onları yaddaşını inkişaf etdirir. Obrazlı yaddaşın insan həyatında rolu böyükdür. Lakin naturadan rəsmin təsiri təkcə obrazlı yaddaşla məhdudlaşmır, o həm də digər yaddaş növlərinə təsir edir. Əşyalar haqqında aydın təsəvvür əsasında şagirdin obrazlı yaddaşı ilə yanaşı təxəyyülü də inkişaf edir.*

*Naturadan rəsm uşaqların estetik tərbiyəsində gözəl vasitə hesab olunur. Uşaqlar naturadan mənzərə, ağac, gül rəsm edərkən bu əşyaların xarakterik formasını öyrənməklə onlarda təbiətin gözəlliyinə, bolluğuna və əlvanlığına maraq hissi oyanır. Onlar tam və hissələrin nisbi mütənasibliyini görür, təbiət formalarında ritm və harmoniyanı tuturlar.*

*Naturadan rəsm məşğələləri də digər məşğələ növləri kimi tədris materialının məntiqi ardıcıllığını gözləməklə, materialın həcmini, mövzunun məzmun dərinliyini və vaxtını nəzərə almaqla qurulur.*

*Naturadan rəsm məşğələləri ancaq şagirdlərə düzgün metodiki rəhbərlik etməklə lazım olan ümumtəhsil və tərbiyəvi əhəmiyyət kəsb edə bilər.*

**Açar sözlər:** rəsm, naturadan rəsm, yaradıcılıq, bacarıq
**Ключевые слова:** рисование, живопись на природе, креативность, навык
**Keywords:** Painting, painting in nature, creativity, skill,